**Respublika.** - 2025.- 24 aprel. - № 81. - S. 13.

# 1915-ci il: ermənilərin törətdikləri qırğınlar

**Qədir Aslan,**
Əməkdar jurnalist

**Birinci Dünya müharibəsi ərəfəsində "Daşnaksütyun"un Anadoludakı şöbələrinə göndərdiyi təlimatlara uyğun olaraq hər bir erməni qonşulara, türklərə, türk ordusuna və hökumətə qarşı silahlandırılmışdı. Plana görə ermənilər hökumətin səfərbərlik çağırışına əməl etməməli idilər. Orduya çağırılanlar da silahları ilə birlikdə fərarilik edərək ölkə içində çətələr təşkil edəcək, yaxud Rusiya ordusunun nəzdindəki könüllü erməni alaylarına qoşulacaqdılar. Van və Bitlis kimi cəbhəyanı bölgələrdə dərhal hərəkət edərək rus qüvvələrinin sürətlə irəliləməsinə şərait yaradacaq, Elyazlıq, Sivas, Diyarbəkir kimi bölgələrdə isə türk ordusunun arxa xətlərini kəsəcək və cəbhə arxasında iğtişaşlar yaradacaqdılar. Beləcə, qalib dövlətlərdən öz mükafatlarını alacaqdılar.**

Birinci Dünya müharibəsi illərində ermənilərin Türkiyəyə qarşı ilk silahlı çıxışı Zeytun bölgəsində oldu. III Napoleon tərəfindən "Zeytun respublikası" adlandırılan bu bölgədə ermənilər çoxdan hazırlıq işləri görmüşdülər. Onlar Türkiyədə səfərbərliyə qarşı çıxır, səfərbərlik məntəqələrinə qeydiyyat üçün gələn müsəlman sakinlərini öldürməyə, əşyalarını ələ keçirməyə başlamışdılar. Zeytun erməniləri komandir və zabitləri özlərindən olmaqla "Zeytun fədai alayı" adı ilə bölgəni mühafizə etmək üçün ermənilərdən ibarət bir milis təşkilatının qurulmasına icazə verilməsini tələb edirdilər. Ermənilər buna nail olmayanda silahlarla silahlanmış dəstələr təşkil edərək dağlara çəkilmiş və üsyana qalxmışlar. Onlar tərxis olub kəndlərinə dönən yüzdən çox türkə hücum edərək əksəriyyətini qətlə yetirmişlər. Həmin gün Maraşa gedən 21 yolçunu soymuşlar.

Zeytundakı Hnçak komitəsi liderlərindən Çakiroğlu Panosun evində keçirilmiş toplantıda İngilislər İskəndəruna çıxacaqları üçün Adana, Maraş işğal oluncaya qədər üsyanlarla səfərbərliyə mane olunması, ingilislərin hərəkətinin dəstəklənməsi, jandarmaların silah və cəbbəxanalarının ələ keçirilməsi, hökumət məmurlarının və ailələrinin öldürülməsi, teleqraf tellərinin kəsilməsi tövsiyə olunmuşdu. 1915-ci ilin fevral ayından hərəkətə keçən 800 nəfərlik erməni silahlı dəstəsi Maraşın teleqraf xəttini kəsmiş, əsgəri qışlağa basqın etmiş və monastra sığınmışdılar. 25 jandarma şəhid olmuş, 34-ü də yaralanmışdı. Bundan əlavə, Maraşın müxtəlif yerlərində bir çox müsəlman erməni dəstələri tərəfindən amansızlıqla qətlə yetirilmişdir. Bölgədə orduya çağırılan ermənilərin hamısı fərarilik etmişdir.

1915-ci il fevralın 24-də İngiltərədəki rus səfiri İngiltərə Xarici İşlər Nazirliyinə gedərək bildirmişdir ki, zeytunlu bir erməni Qafqaz canişini Vorontsov Daşkova müraciət edərək türk ordularının əlaqə yollarını kəsmək üçün 15 minlik bir qüvvə topladıqlarını, ancaq silah və sursat olmadığını söyləmişdir. Güman edilirdi ki, ingilis və fransızlar Ankara limanı vasitəsilə yardım göndərə bilərlər. Rus səfiri ingilislərin bu işə necə baxdıqlarını soruşmuş, ancaq müsbət cavab ala bilməmişdir.

Osmanlı dövlətinin mühüm ticarət və strateji məntəqələrindən biri Qayseriyyə idi. Ermənilərin Hnçak komitəsi buradakı təşkilati işləri kəndlərə yaymaq üçün məşhur David Sultanyana, Sarkis Torosyana vanlı qiyamçı Melkona həvalə etmişdir.

Bunlara qayseriyyəli Hacı Hovhanes, dəmirçi Karapet və qardaşı Levon kömək göstərmiş, xeyli miqdarda bomba istehsal edilmişdi. Bundan əlavə, Amerikada olan ermənilərin maddi yardımları ilə və ticarət mallarının içərisində hissələrə parçalanmış halda göndərilən silah və sursatla əhali silahlandırılmışdı. Hnçak komitəsinin Parisdəki keçmiş başçılarından Sabah Gülyan Qaysəriyəyə gələrək Evepek, Tomarza və İncəsuda təşkilatlanmanı, silahlanmanı və təbliğat fəaliyyətini genişləndirmişdi. "Daşnaksütyun"da Qaysəriyyə bölgəsində böyük fəaliyyət göstərmişdi.

Ermənilər Diyarbəkirdə də çıxışlara hazırlaşırdılar. Əsgərliyə getməyən və silahları ilə birlikdə ordudan qaçan ermənilər "dam taburu" adlı dəstələr təşkil edərək ev-ev gəzir, hərbi ehtiyatlar üçün pul və vəsait toplayır, verməyənləri hədələyirdilər.

Türk hakimiyyət orqanlarının apardıqları axtarışlar nəticəsində "dam taburu" təşkil edən 500 erməni silahları ilə birlikdə yaxalanmışdı. Daha sonra evlərdə 1000-ə qədər erməni fərarisi tutulmuşdu. Çoxlu silah və sursat ələ keçirilmiş və məlum olmuşdur ki, silahların böyük qismi kilsələrdə və məzarlıqlarda gizlədilmişdi.

Diyarbəkirin Silvan qəzasına aid Başnik kəndində gizlənən erməni Derian Dononun dəstəsi 1915-ci ilin iyun ayında jandarma mühafizə dəstəsinə hücum etmiş jandarmaların əksəriyyəti öldürülmüşdü. Şərq nahiyəsinə aid Arzaoğlu və Sarıköydəki əli silah tutan bütün ermənilər Xonekin başçılığı ilə bir dəstə təşkil

edərək kişiləri cəbhədə olan Xıdır İlyas kəndinə basqın etmiş, qadınları və uşaqları Mersin çayına qovaraq güllələmiş və süngüdən keçirmişlər. Qeyd etmək lazımdır ki, ermənilər dini idarələrdə də təxribat məqsədilə və silah gizlədilməsi üçün istifadə edirdilər. Ümumiyyətlə, ermənilər Türkiyə əleyhinə geniş təbliğat işləri aparırdı.

Ermənilər Ərzurum bölgəsinə xüsusi əhəmiyyət verirdilər. Rusiya erməniləri Türkiyəyə buradan keçmiş Trabzon - Van yolunun ortasında yerləşdiyindən həm quru yoluyla Qafqazdan və Trabzon yoluyla müntəzəm məlumat almaq, vilayətlərə silah, hərbi sursat göndərmək çox asan idi. Ərzincandakı sui-qəsdlər, qəsəbələrdə yersiz və lüzumsuz hərbi məmurlara atəş açmaları gündəlik xarakter almışdı. Erməni evlərində xüsusi tərtibatlı yerlər, gizli yollar, mağazalar, evləri bir-birinə bağlayan yeraltı dəhlizlər salınmışdı.

Erməni komitəçilərinin mühüm əhəmiyyət verdikləri bölgələrdən biri də Bitlis idi. Çünki Van-Diyarbəkir, Hələb-İskəndərun yolu buradan keçirdi.

Ermənilərin və onların avropalı havadarlarının ən çox təbliğat və təşkilat işi apardıqları Van bölgəsi idi. Onlar bu ərazidə çox dəhşətli hadisələr törətmişdilər.

Türkiyənin Hizan qəsəbəsinin ətrafında olan Şükür, Korsu, Beykeri, Arşin, Tasu kəndlərində, Kavasda baş qaldıran erməni dəstələri bir çox müsəlmanı işgəncə ilə öldürmüşlər.

1915-ci il fevralın 27-28-də Adilcəvazdan Vana gedən 300-ə qədər siyirtli könüllü əsgər Arın adlı erməni kəndində gecələmək istədikdə ermənilər onlara silahla müqavimət göstərmiş və könüllü türk əsgərlərindən səkkizini öldürmüşlər.

1915-ci ilin aprel ayında ermənilərin Vanda başladıqları qiyam böyük vüsət almağa başladı. Erməni katolikosu V Gevork bu üsyanda 10000 nəfər silahlı komitəçinin iştirak etdiyini bildirdi.

Həmin il mayın 8-də ermənilər Van şəhəri və ətrafına böyük hücum təşkil etmiş, ətrafdakı müsəlman kəndləri yandırmağa başlanmışdır. Valı Çövdət bəy Vandan çəkilmək haqqında əmr vermiş, mayın 18-də müsəlman əhalisi Vandan çıxarılmışdı.

Osmanlılar Vanı tərk etdikdən bir neçə gün sonra rusların ön dəstələri Vana gəlmiş və erməni dəstələri ilə birləşmişlər. Vanın yeni hakimi Aram Manukyan rus komandası Nikolayevə şəhərin açarlarını təqdim etmiş, Nikolayev də onu Vanın rəsmi valisi təyin etmişdir.

"Hayastan" qəzetinin 1915-ci il tarixli 25-ci sayında yazılmışdı: "Biz düşməndən çox mövqe aldıq. Üsyanın dördüncü günü ən böyük qələbəni əldə etdik. Həmid Ağa qışlağındakı partlayış da həmin gün oldu. Biz qışlağın təməli altında bir bomba yerləşdirdik. Qumbara partlasa da, atəş açılsa da, binanı yıxa bilmədik...".

Osmanlı qüvvələri 1915-ci il iyunun 22-də hücuma keçib Vanı ermənilərdən geri aldılar. Türklərin uğuru uzun müddət davam etmədi. Avqustda ruslar ermənilərin köməyi ilə yenidən Vanı işğal etdilər.

Türklərin 4-5 cəbhədə güclü dövlətlərə qarşı ölüm-dirim mübarizəsi apardığı bir vaxtda erməni dəstələri xəyanət edərək qiyamlar qaldırdılar.

1915-ci ilin fevralında Şərqi Anadolunun bütün erməni əhalisi artıq qiyam etmişdi. Buna görə də Osmanlı hökuməti qəti tədbirlər görməyə məcbur oldu. Fevralın 25-də Baş qərargah bütün hissələrə "ermənilərin heç bir halda hərbi xidmətə cəlb edilməməsi barədə" təlimat göndərdi. Beləliklə, erməni vandallarını tərk-silah etdilər.

1915-ci il aprelin 24-də daxili işlər nazirliyi erməni komitə mərkəzlərinin bağlanması, əmlaklarının müsadirə edilməsi və komitə başçılarının həbs edilməsi barədə əmr verdi. Aprelin 26-da Baş komandanlıq eyni məzmunda göstəriş verərək komitə başçılarının hərbi məhkəmələrə verilməsi və təqsirlilərin cəzalandırılmasını tələb etmişdir.

"Hnçak", "Daşnak" komitələrinin üzvləri dərhal tapılıb cəzalandırıldı, erməni komitələrinin liderləri dərhal tutulub zərərsizləşdirildi. Keşişlərin bütün planları alt-üst oldu. Daxili işlər nazirliyinin təlimatına uyğun olaraq İstanbulda 2345 erməni həbs edildi. Osmanlı hökumətinin bu ilk tədbirləri sırf polis tədbirləri olmuşdur.

Qeyd etmək lazımdır ki, Ərzurum, Egin, Sasun, Bitlis, Muş və Kiligiya erməniləri dövlətə qarşı qiyamlarda iştirak etdikləri üçün oradan köçürülmüşlər.

Birinci Dünya müharibəsi dövründə Türkiyədə 1,5 milyon ermənin in qətlə yetirildiyini iddia edənlər belə bir faktı unudurlar ki, 1915-ci ildə Anadoluda 1,3 milyondan çox erməni yaşamamışdır. Əslində ermənilərin soyqırımına məruz qalması tamamilə yalandır və uydurma bir rəqəmdir.

Beləliklə, mənbələrin araşdırılması göstərir ki, erməni millətçiləri Birinci Dünya müharibəsində Türkiyənin ağır vəziyyətə düşməsinin "böyük Ermənistan" barədə xülyalarının həyata keçirilməsi üçün əlverişli məqam bilib hərəkətə keçmişlər.

Ancaq Osmanlı hakimiyyət orqanları tərəfindən erməni millətçilərinin qiyamlarının, mənfur siyasətlərinin qarşısı qətiyyətlə alınmış, zəruri və qəti tədbirlər görülmüş, erməni quldurlarının bir çoxu həbs olunmuş, cəbhəyanı bölgələrdə yaşayan ermənilər imperiyanın digər yerlərinə köçürülmüş, türklərin

qatı düşməni olan haylar ölkədən çıxarılmış hayların Fransa, İngiltərə və Rusiya tərəfindən hazırladıqları işğalçılıq planları türklər tərəfindən alt-üst edilmişdir.